BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2008

# BMT-də İSLAHATLAR VƏ TƏHLÜKƏSİZLİK ŞURASININ DAİMİ ÜZVLƏRİNİN MÖVQEYİ

**R.B.DADAŞOVA**
*AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu*

XX əsrin II yarısında tərksilah, nüvə, kimyəvi, bakterioloji, adi silahlar üzərində nəzarət barədə mühüm sazişlər bağlansa da, lokal müharibələrdə zəhərli qazlar, ölümsaçan minaların tətbiq edilməsi, ekoloji təhlükələr və s. bəşəriyyəti son dərəcə təhlükə altında qoyur. Belə hallarda beynəlxalq sülh və təhlükəsizlik sisteminin müdafiəsində bütün səlahiyyətlərə malik olan beynəlxalq təşkilat kimi BMT-nin üzərinə daha çox məsuliyyət düşür. BMT-nin fəaliyyətinin nəticələri sübut edir ki, onun effektiv təsiri üzv dövlətlərin, öncə böyük dövlətlərin, Təhlükəsizlik Şurasının daimi üzvlərinin əməkdaşlığından asılıdır.

Beynəlxalq təşkilatların, ələlxüsus bmt kimi universal bir qurumun əsas prinsipi üzv dövlətlərin suverenliyinə hörmət etməkdir. Sülh, azadlıq, sosial tərəqqi ilə bərabərhüquqluluq, insan ləyaqəti BMT Nizamnaməsində və 1948-ci il 10 dekabr tarixli İnsan Hüquqlarının Ümumi Bəyannaməsində öz əksini tapır. Çoxtərəfli institutların möhkəmlənməsi və sülh prosesinin kollektiv həlli müasir mərhələdə önəmlidir. XX əsrin 80-90-cı illərindən başlayaraq Asiyada və Afrikada olan münaqişələrin çoxluğu beynəlxalq institut kimi BMT-nin fəaliyyətinin genişlənməsini tələb edir. Kollektiv təhlükəsizlik sisteminin və çoxtərəfli əməkdaşlığın əsas təminatçısı BMT-dir. Digər beynəlxalq regional, subregional təşkilatlar isə onun fəaliyyətini tamamlayır. Bmt nizamnaməsinin yeddinci fəslində qeyd edildiyi kimi kollektiv təhlükəsizlik və sülh yaratmanın başlıca məsuliyyəti təhlükəsizlik şurasının üzərinə düşür. Məhz bu orqan sülh və təhlükəsizlik yaratmaq, sanksiya vermək səlahiyyətinə malikdir. BMT Nizamnaməsinin VI, VII, VIII, XII fəsillərində TŞ-nın beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə hüquqları göstərilmişdir (1, s. 23-33; 43-48).

Təhlükəsizlik Şurasının daimi üzvləri ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çindir. Bu dövlətlərin veto qoymaq hüququ var və buna görə də beynəlxalq təhlükəsizliyi təmin etməkdə onların hüquqları daha çoxdur. Bu "beşlik" veto hüququndan bəhrələnir və buna görə də daimi üzvlər ilə müvəqqəti üzvlər arasında bir növ həmrəylik azalır, ənənəvi olaraq diplomatiya "beşliyin" xeyrinə işləyir (2). Beynəlxalq sülh və təhlükəsizliyi təmin etməkdə geniş səlahiyyətləri olan TŞ-da islahatlar aparmaqla, BMT-nin nüfuzunu artırmaq olar. BMT-nin varisi olduğu Millətlər Cəmiyyəti kimi süqut etməsi ehtimalı barədə baş katib Kofi Annan öz fikrini belə ifadə edib: «yarım əsr əvvəlki kimi bü təşkilat yenə aktualdır. BMT-yə üzv dövlətlər bu gün üçün vacib olan bu təşkilatın imkanlarından effektli istifadə etmirlər. BMT ümumi dəyərlərin qəbul

edilməsində nümunə olmalıdır. Biz, əsasən insan hüquqlarının müdafiəsində bir çox istiqamətlərdə effektivliyi yüksəltməliyik...» (3, s. 70-77) Baş Katib daha sonra qeyd edir ki, «TŞ-da islahat, onun genişlənməsi, daha da demokratikləşməsi bu günün reallıqlarına cavab verməlidir» (4, s. 3-8).

Şübhə yoxdur ki, çoxtərəfli institutların həmişə kamilləşməyə ehtiyacı var. Onların strukturu müasir tələbatlara cavab verməlidir. BMT-nin islahatı prosesi onun iş qabiliyyətinin daha operativ və effektli olması ilə müşahidə edilməlidir. 2003-cü ilin payızında Baş Məclisin 58-ci sessiyasında 50 dövlətin baş nazirləri, xarici işlər nazirləri bmt tribunasından çoxtərəfli əməkdaşlığı müdafiə etdilər, BMT-nin mərkəzi rolunu möhkəmləndirmək məsələsini irəli sürdülər. Məlum olduğu kimi, 2003-cü ildə aparıcı və nüfuzlu beynəlxalq təşkilatların vəziyyəti çətin oldu. İraq məsələsi barədə Avropa Birliyində parçalanma oldu. ABŞ-ın iraqa hücumunu dəstəkləməyən BMT özünə etibarı artırdı. Baş Katib K.Annan BMT-də islahatlar aparmaq üçün qrup yaratdı (5, s. 59-62). Hazırda bu qrup TŞ-nın islahatlarında iki alternativ model təklif edir: TŞ-na üzv dövlətlər dörd əsas zona – Afrika, Asiya və Sakit Okean, Avropa və Amerika üzrə seçilir, A modelinə görə, heç birinin veto hüququ olmayan 6 yeni daimi üzv, 3 yeni müvəqqəti, yəni 2 il müddətinə seçilmiş üzv olmalıdır. Bu modelə müvafiq olaraq, əgər hal-hazırda Afrikadan daimi üzv yoxdursa, 2 daimi üzv bu qitədən, Asiya və Sakit Okeandan 1 daimi üzv əvəzinə 2 üzv, müvəqqəti üzvlüyə Afrikadan 4, Asiya və Sakit Okeandan 3, Avropadan 2, Amerikadan 4 dövlət seçilməlidir. Nəticədə, TŞ-nın daimi üzvlərinin sayı 5 deyil – 6, müvəqqəti üzvlərinin sayı 10 deyil – 13 olmalıdır. Qrupun təklif etdiyi B modelinə görə, TŞ-da heç bir yeni daimi üzv olmayacaq. Qrup yeni kateqoriya ilə 4 il müddətinə 8 üzv seçilməsini təklif edir. Hər zona üzrə 2 dövlət 4 il müddətinə seçilməlidir. 2 il müddətinə seçilən üzvlər Afrikadan 4, Asiya və Sakit Okeandan 3, Avropadan 1, Amerikadan 3 dövlət olmalıdır. Göründüyü kimi, heç bir modeldə daimi üzvlərin veto qoymaq hüququ yoxdur.

BMT-nin təhlükəsizlik problemlərinin həllində nüfuzunu artırmaq üçün Təhlükəsizlik Şurasında ciddi islahatlar aparılmalıdır. TŞ-da islahatların aparılmasında başlıca maneə dövlətlər arasında fikir ayrılığıdır. Bəziləri daimi üzvlərin, bəziləri müvəqqəti üzvlərin sayının artırılması tərəfdarıdır, digərləri isə daimi üzvlərin olması əleyhinədir. Fikrimizcə, sonuncular haqlıdır. Çünki daimi üzvlərin veto qoymaq hüququ digər üzvlərin hüquqlarını məhdudlaşdırır. Bu gün TŞ daimi üzvləri arasında əməkdaşlıqdan daha çox ziddiyyətlər mövcuddur. İstər etnik, istər regional, istərsə də beynəlxalq terrorizmlə mübarizədə bu dövlətlər arasında fikir ayrılığı özünü göstərir. TŞ daimi üzvləri arasında ABŞ-ın mövqeyi Böyük Britaniya ilə, Rusiyanın mövqeyi Fransa ilə uzlaşırsa, Çinin mövqeyi əksər halda neytral olur. Bu dövlətlərin hər birinin müasir dövrdə hadisələrə necə yanaşmasına diqqət yetirək.

Beynəlxalq münasibətlərin yeni sisteminin formalaşmasında ABŞ yalnız iqtisadi hegemonluğa meyl etmir, o həm də dünyanın iqtisadi baxımdan zəngin və strateji əhəmiyyətli regionlarında mövqeyini möhkəmlətməyə cəhd edir. Bipolyar sistemin süqutundan sonra Rusiya fövqəldövlət mövqeyini əldən verib, böyük dövlətlər arasında siyasi konsensus xəttini götürür. ABŞ və Rusiya arasında geopolitik və geostrateji ziddiyyətlərin saxlanılması bu iki ölkə arasında sabit münasibətlərin inki-

şafına imkan vermir. Prezident C.Buşun xarici siyasətinin əsasını hərbi qüvvələrin gücləndirilməsi, ABŞ-ın xarici siyasətini müdafiə edən dövlətlərlə müttəfiqliyi möhkəmlətmək, ABŞ üçün təhlükə yaradanlara qarşı daha kəskin siyasət təşkil edir. Digər ölkələrlə bağlı məsələlərdə müttəfiqlərlə, dünənki rəqiblərlə, keçid tipli bütün dövlət qurumları ilə münasibətlərdə ABŞ öz maraqlarını müəyyən edir. Möhkəm hakimiyyət sistemi olmayan, müxtəlif tipli diktatorun hegemonluq etdiyi müflisləşmiş ölkələrlə münasibətlərdə ABŞ-ın əsas məqsədi qlobal mövqeyini möhkəmlətməkdir. ABŞ sözdə nüvə silahının yaranması əleyhinə çıxsa da, özü nüvə silahı istehsalını və bu silahın modernləşdirilməsini davam etdirməkdədir. ABŞ-ın sabiq müdafiə naziri Robert Maknomaranın dediyi kimi, hazırda ABŞ-ın da, Rusiyanın da hər birinin təxminən 6 min nüvə silahı var. Hər bir ABŞ nüvəsi Xirosimaya atılmış bombadan orta hesabla 20 dəfə çox dağıdıcı qüvvəyə malikdir. 6 min nüvə silahından 2 mini döyüşə hazırlıqlıdır və 15 dəqiqə ərzində istənilən hədəfə qarşı buraxıla bilər (6, s. 89-109). Keçmiş müdafiə nazirinin sözü ilə desək, «50 ildir ki, nüvə silahının və onun materiallarının məhdudlaşdırılması haqqında danışılır». Silahlar üzərində nəzarət inkişaf etmiş ölkələrə də aid olmalıdır. Həmin ölkələr dağıdıcı texnologiyanı leqal və qeyri-leqal yolla buraxır, satır, öz müdafiə potensiallarını möhkəmləndirir, düşmən hesab etdikləri dövlətlərə qarşı istifadə edirlər. ABŞ-ın və onun müttəfiqlərinin Əfqanıstanda, İraqda istifadə etdikləri müxtəlif növ raketlər də kütləvi qırğın silahları vasitələrindən biridir.

Həmişə olduğu kimi, ABŞ-ın son zamanlardakı xarici siyasətini də dəstəkləyən dövlət əsasən Böyük Britaniyadır. ABŞ müttəfiqi Böyük Britaniyanın köməyi ilə TŞ-nın sanksiyası olmadan İraqa hücum etdi. Lakin İraqdakı böhran, oradakı islahatların çətinliyi göstərir ki, İraq problemi çoxtərəfli əməkdaşlıq əsasında, 192 dövlətin üzv olduğu BMT çərçivəsində həll edilməlidir.

TŞ-da Rusiya və Fransanın mövqeyi ABŞ və Böyük Britaniyanın mövqeyi ilə bir çox məsələlərdə ziddiyyət təşkil edir. Son zamanların problemi olan İraq böhranında da Fransa, Rusiya, Almaniya beynəlxalq hüquq prinsipləri əsasında çıxış etdilər. Bu dövlətlər BMT-də islahatların tərəfdarıdırlar. Onların fikrincə, islahatların baş tutması problemlərin demokratik yolla həllinə gətirib çıxarar, çoxtərəfli əməkdaşlıq və çoxqütblülük yeni təhlükələrlə mübarizədə bütün qüvvələri səfərbər edə bilər.

Rusiya öz siyasətini dəyişməyərək BMT-nin təhlükəsizlikdə aparıcı rolunu həmişə dəstəkləyir. Rusiyanın prezidenti V.V.Putinin Baş Məclisin 58-ci sessiyasında bildirdiyi kimi, BMT məktəbinin başlıca dəyəri odur ki, bəşəriyyətin təhlükəsizliyi, ədalətlilik, firavan dünya yaratmaqda onun alternativi yoxdur (7, s. 9-20). BMT-nin qlobal təhlükəsizliyi normaya salmaq haqda qətnamələri, Rusiyanın təşəbbüsü ilə konsessus yolu götürməsi belə fikir yaradır ki, BMT müasir təhlükəsizliyi təmin edən çoxtərəfli sistemdir. Rusiyanın təşəbbüsü Fransanın, Çinin, həmçinin BMT-nin baş katibİ K.Annanın ideyaları ilə bir istiqamətdədir. K.Annan kollektiv tədbirlərin keçirilməsi, BMT-nin əsas orqanlarının funksiyası barədə tövsiyələr verilməsi üçün Rusiyadan akademik E.M.Primakovun da iştirakı ilə yüksək səviyyəli qrup təsis etmişdir.

Kütləvi qırğın silahlarının məhdudlaşdırılmasına gəldikdə isə C.Buş V.V.Putinə 2001-ci ilin noyabrından nüvə silahının 1700-2000-

dək azaldacağını bildirmiş, Rusiyaya da nüvə silahını 1500-ə qədər azaltmasını təklif etdi. Onda belə nəticəyə gəlmək olar ki, ABŞ daha çox nüvə silahına malik olacaq. Əgər hər iki rəqib, ABŞ və Rusiya bərabər nüvə silahına malik olarsa, onlar arasında strateji sabitlik şərtləri və bu sahədə paritetlik mövcud olar. 2002-ci ildə Rusiya və ABŞ arasında strateji hücum potensialının məhdudlaşdırılması haqqında müqavilə imzalandı. Ancaq bu dövlətlər arasında möhkəm qarşılıqlı fəaliyyət, məsələn, qarşılıqlı kapital qoyuluşu, bazarlarda iştirak və s. yoxdur. ABŞ - Rusiya münasibətlərində ənənəvi soyuqluq var. TŞ-nın sanksiyası olmadan ABŞ-ın İraqa hücumu hər iki ölkənin münasibətlərinə böyük zərər vurdu. Demokratik institutlar, azad söz, müxalifətə, xüsusi biznesə dövlətin müdaxiləsi olduğu üçün ABŞ Rusiyanı demokratik dövlət saymır. Xarici siyasət üzrə mütəxəssis, ABŞ-ın dövlət katibi Kondaliza Raysın fikrincə, Rusiya iş, müdafiə, iqtisadiyyat, sosial münasibətlər sahəsində islahatlar həyata keçirməyə qabil deyil. İndi ölkə sonrakı «sovet» nümunəsidir, yenidən silkələnə bilər. Rusİya üzrə mütəxəssİs R.Perl hesab edir ki, Rusiya diktatura yaradılması yolunda təkamül edir (8, s. 32). Bu mütəxəssislər Rusiyada demokratiyaya inanmır və Rusiya raket-nüvə potensialının saxlanmasını ABŞ üçün başlıca təhlükə hesab edirlər. K.Rays, ABŞ-da Rusiya üzrə görkəmli mütəxəssis Ariel Koen, Stenford Universitetinin professoru Maykl Makfol, ABŞ konqresinin nümayəndələr palatasında beynəlxalq məsələlər üzrə komitənin üzvü demokrat Li Qamilton və b. hesab edirlər ki, Rusiya rəhbərliyi ABŞ-ın Avropa və Şərqi Asiyada hərbi həmkarları ilə siyasi alyans yaratmağa təkidlə çalışır. Məqsəd ABŞ ilə onların münasibətlərinə mane olmaqdır. Moskva ordunun müasirləşdirilməsini ikiqat artırmaq üçün müasir silahlar istehsal edir, dolayı yolla onlardan antiamerikan istiqamətində istifadə edir. 2002-ci ildə C.Buş milli təhlükəsizlik məsələlərinə dair çıxış edərək qeyd etdi ki, ABŞ heç vaxt özü ilə müqayisə edilə bilən dövlətin yaranmasına yol verməyəcək. ABŞ-ın hərbi qüvvəsi strateji rəqibini vurmağa hazırdır (9, s. 9-13).

ABŞ-ın Çinin şimal-qərb sərhədlərində keçirdiyi hərbi təlimlər Çinin sərhədlərini təhlükə altında qoyur. Çin ABŞ-ın ən böyük potensiallı rəqibİdir. ABŞ Mərkəzi Asiyada möhkəmlənməklə, Rusiya kimi Çini də əldə saxlamağa çalışır. Digər tərəfdən, Vaşinqton Rusiyanın Çinlə hərbi əməkdaşlığına mane olur, Rusiya silahının Cənubi Koreya və Cənub-Şərqi Asiya ölkələrinə satılmasına Şərqi Asiyada yeni qüvvə mərkəzinin yaradılması kimi baxır. ABŞ-ın fikrincə, region ölkələrinin hərbi əməkdaşlığı təkcə Şərqi Asiyada deyil, həm də qlobal səviyyədə ABŞ-a strateji rəqib ola bilər. Çin diplomatiyası ABŞ-ın başlıca rəqibi olmaq fikrindən qaçsa da, ölkələr arasında hələ münasibətlər perspektiv deyil. ABŞ Tayvanın Çinlə birləşməsi məsələsini tanımır. Beləliklə, Çin və ABŞ arasında ziddiyyətlər var, ancaq Çinin mülayimliyi ilə bu ziddiyyətlər hələ üzə çıxmır.

Yuxarıda göstərilən faktlardan aydındır ki, TŞ-nın daimi üzvləri arasında ziddiyyətlər mövcuddur. TŞ hər hansı siyasi sanksiyanı verdikdə isə sözsüz ki, veto qoymaq hüququ olan dövlət öz maraqlarını ifadə edəcək. İstənilən beynəlxalq institut kimi BMT-nin də təkmilləşməyə, müasirləşməyə ehtiyacı var. BMT Nizamnaməsində ifadə edilmiş hüquqların həyata keçirilməsi potensialını möhkəmlətmək lazımdır. Veto hüququnu ləğv etməklə, TŞ-nın daimi üzvlərinin sayı artırılmalıdır. TŞ-

nın daimi üzvləri sırasına Almaniya, Yaponiya, Hindistan, Braziliya, müsəlman ölkələrinİn, Afrika ölkələrinin nümayəndələri daxil olsa, daha demokratik olar. Müvəqqəti üzvlər arasında da inkişaf etməkdə olan dövlətlərin sayı artırılmalıdır. TŞ qəbul etdiyi qətnamələri sözdə deyil, işdə həyata keçirməlidir. Ermənistanın Azərbaycana qarşı təcavüzü, onun ərazisini işğal etməsi TŞ-nın 4 qətnaməsində öz əksini tapsa da (10), TŞ praktiki bir iş görməmişdir.

TŞ yalnız müzakirələr «otağına» çevrilməməlidir, operativ iş görülməlidir. TŞ-nın qətnamələrinin reallığa çevrilməməsi onun iş qabiliyyətinə, nüfuzuna mənfi təsir edir. TŞ-nın zəifləməsi digər orqanlara da təsir edə bilər. ABŞ hüquqşunası L.Qross bu barədə yazır ki, «TŞ-nın iflici Baş Məclisə yayılmamalıdır. ABŞ-ın «kompensasiya» doktrinasına görə BMT-nin əsas orqanlarından birinin zəifləməsi, digər orqanın zəifləməsinə gətirib çıxarır». Hələ «soyuq mühar İbə» illərində ABŞ siyasi xadimləri və hüquqşunasları yazırdılar kİ, son illər BMT «hirsli veto» hüququndan istifadə edir (11, s. 40-45). Veto hüququ aparıcı dövlətlərin, yəni TŞ-nın beş daimi üzvünün maraqlarını ənənəvi olaraq qorumaq üçün vasitədir.

Bəşəriyyəti etnik, regional, dini münaqişələrdən, terrorizm, narkomafiya, cinayət və digər təhlükələrdən xilas etmək yolunda BMT-nin mövcudluğu zəruridir və bu da təbiidir ki, dünyada yeni problemlər ortaya çıxır, problemlərin həlli edilməsi isə BMT-də islahatlar keçirilməsini tələb edir. BMT-nin fəaliyyətinin effektivliyi əsasən Təhlükəsizlik Şurasının fəaliyyəti ilə müəyyən edilir. Buna görə də beynəlxalq təhlükəsizliyə təminat verən BMT-nin əsas orqanı kimi TŞ-da islahatların keçirilməsi vacibdir. İki çıxış yolu var. Birinci çıxış yolu yuxarıda göstərdiyimiz kimi, veto hüququ ləğv edİlməklə, TŞ-nın daimi üzvləri sırasına Almaniya, Yaponiya, Hindistan, Braziliya, müsəlman ölkələrinin, Afrika ölkələrinin nümayəndələrini seçməklə, TŞ-nin genişləndirilməsidir. ABŞ qlobal liderlikdən əl çəkməlidir. İkinci çıxış yolu isə TŞ-nın daimi üzvlərinin ləğv edilməsi, müvəqqəti üzvlərin sayının çoxaldılmasıdır. Fikrimizcə, bu islahatlar axırıncı olmamalı, tarixi, siyasi şəraitin tələblərinə müvafiq olaraq sülh və təhlükəsizliyin əsas müdafiə sistemi kimi saxlanılmasına ehtiyac duyulan BMT-nin mexanizmi daimi təkmilləşdirilməlidir.

## QEYDLƏR


1. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Beynəlxalq Məhkəmənin Statutu, Bakı.
2. Charles Zorgbibe, La France, L'ONU et le maintien de la paix, Paris, Press Universitaires de France, 1996.
3. Кофи Аннан. Сохранились ли у нас всеобщие ценности? – «Международная жизнь». М.: 2004, № 2.
4. Кофи Аннан. И вы чувствуете, что где-то за углом притаилась надежда..? – «Международная жизнь». М.: 2004. № 3.
5. Накашидзе Бодри. ООН – некоторые аспекты реформирования. – «Власть», М.: 2005, № 6.
6. Роберт Макномара. Безрассудство политики США и НАТО в области ядерного оружия. – «Международная жизнь». М.: 2005, № 3-4.
7. Юрий Федотов. Современные вызовы многосторонности и ООН. – «Международная жизнь». М.: 2004, № 3.

8. Виктор Кременюк. Внешняя политика США и НАТО в области ядерного оружия. – «Международная жизнь». М.: 2005, № 3-4.
9. Крупянко М., Крупянко И. Россия и США в Евразии: партнеры и соперники, – «Азия и Африка». М.: 2004, № 2.
10. Resolution 822 (1993), Resolution 853 (1993), Resolution 874 (1993), Resolution 884 (1993), United Nations, Security Council, Original.
11. Федоров В. Н., Ефимов Г. К. ООН и поддержание международного мира. Издательство «Знание». М.: 1969.

## РЕФОРМАЦИЯ В ООН И ПОЗИЦИИ ПОСТОЯННЫХ ЧЛЕНОВ СОВЕТА БЕЗОПАСНОСТИ

**Р.Б.ДАДАШЕВА**

**РЕЗЮМЕ**

Статья посвящена исследованию реформ ООН и позиций постоянных членов Совета Безопасности. ООН самая сильная международная организация по поддержанию мира и безопасности. Совет Безопасности несёт основную ответственность за поддержание международного мира и безопасности. ООН должен применять резолюции, принятые Советом Безопасности. В статье исследованы разногласия франко-русско-китайского блока с США, Великобританией. В заключении автор выдвигает научные результаты касающиеся данной проблемы.

## THE REFORMS İN THE UN AND THE POSİTİONS OF PERMANENTS MEMBERS OF THE SECURİTY COUNCİL

**R.B.DADASHOVA**

**SUMMARY**

The article is dedicated to the research the reform in the UN and the positions of the permanents members of security council. One of the primary purposes of the United Nations is the maintenance of international peace and security. The Security Council is primary organ for dealing with issues of international peace and security. The resolutions of the SC of the UN must put into practice. In the article showed the possible reform in the SC of the UN and the difference between USA, the Great Britain and the franco-russian-china block. At the conclusion of the article the general issue related to the researched problem have been set up.